*Yubilyarları təbrik edirik!*

# PƏRVİZ ZİYA OĞLU MƏMMƏDOV – 85



12 yanvar 2022-ci ildə tanınmış geoloq alim, AMEA-nın Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, akademik Pərviz Məmmədovun 85 yaşı tamam olmuşdur.

Pərviz Ziya oğlu Məmmədov 1937-ci ildə Bakı şəhərində anadan olub. 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Mühəndis-geofizik ixtisası üzrə bitirmişdir.

P.Məmmədov 1967-ci ildə geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, 1992-ci ildə geologiya-mineralogiya üzrə elmlər doktoru elmi dərəcələrini, 1993-cü ildə professor elmi adını almışdır. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib.

O, əmək fəaliyyətinə 1959-cu ildə Azərbaycan Neftçıxarma üzrə Elmi tədqiqat İnstitutunda texnik-operator vəzifəsindən başlayaraq böyük radiotexnik, mühəndis-geofizik, böyük mühəndis vəzifələrində çalışmışdır. 1958-1966-cı illərdə P.Məmmədov keçmiş ÜİET Geofizika İnstitutunun Azərbaycan filialında böyük mühəndis, elmi işçi vəzifələrində çalışıb. O, 1968-ci ildən Azərbaycan Dövlət Neft Akademiyasının Geofiziki kəşfiyyat üsulları kafedrasında assistent, dosent, professor, kafedra müdiri, elmi işlər üzrə prorektor, rektor işləyib. Hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Geofizika kafedrasının məsləhətçi professoru və AMEA-nın Geologiya və Geofizika İnstitutunun şöbə müdiri vəzifələrində işləyir.

P.Məmmədov beynəlxalq aləmdə tanınmış geofizik alimdir. O, geofizikada ilk dəfə seysmik dalğaların spektral analizinin geoloji effektliyini tədqiq edib və keçmiş SSRİ-də dalğaların dinamik xassələrinin geofiziki interpretasiyada səmərəsini əsaslandıran ilk tədqiqatçılardandır. 1980-1990-cı illərdə neftli-qazlı çöküntüləri aşkarlamaq imkanı verən “Seysmostratiqrafiya” üsulunun inkişafında və Cənubi Xəzər dibinin və çöküntü qatının öyrənilməsində onun elmi nailiyyətləri istər keçmiş SSRİ məkanında, istərsə də ABŞ və Avropa geofizikləri tərəfindən yüksək qiymətləndirilib. O, Cənubi Xəzər meqaçökəkliyinin iyerarxiyasını öyrənib, dənizdə bir neçə qeyri-antiklinal tipli neft-qaz yatağı aşkarlayıb və istehsalata tövsiyə edib, bir sıra xarici şirkətlərin sifarişilə elmi tədqiqatlar aparıb.

O, Beynəlxalq Geofizika Cəmiyyətinin, Azərbaycan Milli Geofizika Komitəsinin, Amerika Neftçi-Geoloqlar Assosiasiyasının, Avropa Geoelmləri Mühəndisləri Assosiasiyasının üzvü, Beynəlxalq Mühəndislər Akademiyasının (Rusiya) müxbir üzvü, eləcə də Beynəlxalq Elmlər Akademiyasının (İnsbruk, Avstriya) həqiqi üzvüdür.

P.Məmmədov 240-dan artıq elmi əsərin, 1 monoqrafiyanın müəllifidir. Alim 3 elmlər doktoru və 10 fəlsəfə doktoru dissertasiya işinə rəhbərlik etmişdir.

Müxtəlif illərdə AR Təhsil Nazirliyinin və AMEA Rəyasət Heyətinin Fəxri fərmanlarına, AMEA-nın akademik M.Əliyev adına mükafatına (2016) layiq görülmüşdür.

***Geofizika və geologiya İdarəsinin rəhbərliyi və əmək kollektivi, “Azərbaycanda Geofizika Yenilikləri” jurnalının redaksiya heyəti Pərviz müəllimi – Azərbaycanın tanınmış alimini anadan olmasının 85 illiyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır!***